**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Bakı Dövlət Universiteti**

**Filologiya fakültəsi**

***Filologiya fakültəsi Tələbə Gənclər Təşkilatının***

***2019-cu il üzrə illik hesabatı***

***Filologiya fakültəsinin dekanı: Dos. ELÇİN MƏMMƏDOV***

***TGT-nin Filologiya fakültəsi üzrə sədri: TURAL CƏFƏROV***

## *Filologiya fakültəsi*

## *Tələbə Gənclər Təşkilatının strukturu*

### *Filologiya fakültəsi*

### *Tələbə Gənclər Təşkilatının idarə heyəti*

**Filologiya TGT sədri** – Tural Cəfərov

**Filologiya TGT sədr müavini** – Emçiyev Həsrət

**Filologiya fakültəsinin nəzdində fəaliyyət göstərən "Self Progress Club"-un sədri** – Əliyeva Nisə

**Filologiya TGT-nin nəzdində fəaliyyət göstərən "Art Club"-un sədri** – Hüseynzadə Ləman

**Filologiya TGT-nin nəzdində fəaliyyət göstərən "Music Club"-un sədri -** Nəzərli Aysu

**Filologiya TGT-nin nəzdində fəaliyyət göstərən "Club of Young Actors"– un sədri** – Qurbanlı Ləman

**Dizayn üzrə menecer -** Əbilhəsənli Gülyaz

**Maliyyə üzrə menecer** – Əliyeva Fatimə

**Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə menecer - TGT Filologiya könüllülərlə iş üzrə menecer-**Məmmədova Nazlı

**TGT Filologiya könüllülərlə iş üzrə menecer-** Qasımzadə Sunay

# Filologiya TGT sosial şəbəkələrdə

Təbliğat məqsədilə filologiya fakültəsinin saytında TGT üçün ayrıca link, facebook və instagram sosial şəbəkələrində səhifə yaratmışıdır.




**Facebook sosial şəbəkəsində səhifəmiz**

[https://www.facebook.com/bdutgtfilfak/](https://www.facebook.com/bdutgtfilfak/)

**BDU Filologiya fakültəsinin saytında linkimi**

http://philology.bsu.edu.az/az/content/tlb_gnclr_tkilat_



**Instagram sosial şəbəkəsində səhifəmiz**

**https://www.instagram.com/bdu_tgt_filfak/**



# *Filologiya TGT-nin keçirdiyi tədbirlər*

**01 mart 2019-cu il** tarixində Filologiya fakültəsi Tələbə Gənclər Təşkilatının təşkilatcılığı ilə rus bölmələri üzrə "Что? Где? Когда?" adlı intellektual oyun keçirilib. Oyun zamanı dünya görüşünü əhatə edən müxtəlif mövzulardan suallar səsləndirilib.

İlk öncə Filologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının sədri Cəfərov Tural yarışmanı açıq elan elədi.

Maraqli və mübarizəli keçən yarışda eyni zamanda digər fakültələrin tələbələrindən ibarət komandalar iştirak edib.

Gərgin mübarizəli keçən yarışda 6 komanda: "Victory", "Знатаки", "Unattainable", "Golden circle", "БЭМС", "711" iştirak etmişdilər. Yarış 4 mərhələdən ibarət idi.Sonra final mərhələsinə vəsiqə qazanan "Unattainable" və "Знатаки" komandalarından, "Знатаки" komandası qalib olaraq, 1-ci layiq görülüb.Qalib komanda sonra sertifikatla mükafatlandırıldı.




**30 aprel 2019-cu il** tarixində Filologiya və Tarix fakültəsinin Tələbə Gənclər Təşkilatının birgə əməkdaşlığı ilə Bakı Dövlət Universitetinin 100 illiyinə həsr olunmuş “I əsrin töhfəsi” adlı tədbir keçirilib.

Tədbir dövlət himninin oxunması ilə başlayıb. Çıxış üçün ilk söz Tarix fakültəsinin dekanı Azad Rzayevə verilib. Azad Rzayev fakültənin tarixi haqqında faktları nəzərə çatdırıb. Daha sonra Filologiya fakültəsinin dekan müavini professor Nizami Xəlilov Filologiya fakültəsində tədris və elmi işlər, gənclər üçün yaradılan imkanlar barədə çıxış edib. Tələbələrin çıxışı ilə tədbir olduqca maraqlı və yaddaqalan keçib. Universitetin dünya şöhrətli məzunu Heydər Əliyev barədə Tarix falütəsinin II kurs tələbəsi Kəmalə Abışova, Filologiya fakültəsinin tarixi haqqında Ləman Qurbanlı, Tarix fakültəsinin tarixi haqqında Tarix fakültəsinin I kurs tələbəsi Rauf Məmmədov çıxış edib. Tədbirdə tələbələrin ifa etdiyi musiqi nömrələri və şeir xoş ovqat yaradıb.





**16 oktyabr 2019-cu il** tarixində BDU-nun Filologiya fakültəsində Tələbə Elmi Birliyi və Tələbə Gənclər Təşkilatı üzvlərinin birgə təşkilatçılığı ilə "Stefan Sveyqin "Amok" əsərinə müasir dünyagörüşü ilə bir baxış" adlı bədii seminar keçirilmişdir. Seminar SABAH qrupları üzrə IV kurs tələbəsi, TEB-in sədri Elnarə Hüseynzadə və IV kurs bakalavriat tələbəsi, TGT-nin Filologiya fakültəsi üzrə sədri Cəfərov Tural tərəfindən açıq elan olunub. Daha sonra söz məruzəçiyə verilib. Mövzu üzrə məruzə edən III kurs bakalavriat tələbəsi, TEB-in bakalavrlar üzrə koordinatoru Məleykə Mirzəli yazıçının həyat və yaradıcılığı haqqında məlumat verdikdən sonra iştirakçıları əsərin ümumi məzmunu ilə tanış edib. Seminar iştirakçılarına qısa fasilə verilərək çay süfrəsi təşkil edilmiş, eyni zamanda Filologiya fakültəsinin istedadlı tələbələrindən olan Rüfət Qarayev gitaranın müşayiətilə mahnı ifa etmişdir. Məruzəçi nitqini başa vurduqdan sonra sözü auditoriyaya verib. Seminar iştirakçıları məruzəçinin ünvanladığı suallara fikir və rəylərini bildirərək əsərdə olan mübahisəli nüanslara aydınlıq gətirməyə çalışıblar. Tədbirin sonunda diskussiyada aktiv iştirak etmiş tələbələr sertifikatla təltif edilib.







**21 oktyabr 2019-cu il** tarixində Filologiya fakültəsinin ev sahibliyi,Sosial elmlər və psixogiya fakütləsinin əməkdaşlığı ilə “Feminizm nədir?Yaxud qadın hüquqlarının mühafizəsi”mövzusunda diskussiya xarakterli tədbir keçirilib.Tələbə Gənclər təşkilatının sədri Nicat İsmayılov nəzəri hissə ilə tədbiri açıq elan edib.Daha sonra Filologiya fakültəsinin ikinci kurs tələbələri Adilə Hacızadə,Nərmin Abdullazadə ,Sezər Məmmədli,Sosial Elmlər və Psixologiya fakültəsinin TGT üzrə sədri İsa Bəylərov və sədr müavini Zəhra Əliyeva  iştirakçılara məruzələri ilə sözügedən mövzuda maarifləndirici məlumatlar çatdırıblar.Tədbir zamanı tələbələrin qadın hüquqları barəsində səsləndirdiyi fikirlər,irəli sürdüyü təkliflər dinlənilib.Qeyd edək ki,bu son bir həftə ərzində reallaşdırılan 5-ci tədbirdirimizdir.





**23.11.2019 tarixində** Filologiya fakültəsində BDU İntellektual Oyunlar Klubu və Filologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının birgə əməkdaşlığı ilə rus bölmələri üzrə "Nə? Harada? Nə zaman?" intellektual oyunu təşkil edilib.Oyun gərgin və bir o qədər maraqlı şəraitdə keçib.Yarış 3 mərhələdən ibarət idi.

Qalib isə "Pliada Zvezd"komandası olub.





**29.11.2019 tarixində** Filologiya fakültəsinin ev sahibliyi və Şərqşünaslıq fakültəsinin Tələbə Gənclər Təşkilatlarının birgə təşkilatçığı ilə dahi Azərbaycan şairi Nəsiminin 650 illik yubileyinə həsr olunmuş "Nəsimi şeirinin işığında" adlı tədbir keçirilib.Tədbiri Filologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının sədr müavini,aparıcı Sezər Məmmədli açıq elan edib,Azərbaycan Respublikasının himni səslənib.İlk olaraq fakültəmizin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov qonaqları salamlayaraq Nəsimi irsinin təbliğinin zəruriliyinə dair fikirlər səsləndirib.Şərqşünaslıq fakültəsinin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Şahin Yusifli də öz növbəsində maraqlı fikirlərlə yadda qalıb.Tədbir prosesində Şərqşünaslıq fakültəsinin müəllimi,Elmlər doktoru professor Aida Qasımova çıxış edərək qonaqları maarifləndirib.Sonra fakültəmizin müəllimi,Filologiya elmləri üzrə fəlsəfə doktoru dosent Sevinc Qocayeva mövzü haqda gözəl düşüncələr səsləndirib.Bədii hissədə isə Filologiya fakültəsi ikinci kurs tələbəsi Əbilhəsənli Gülyaz Nəsiminin "Yanaram" qəzəlini səsləndirib.Yekunda Şərqşünaslıq fakültəsinin dördüncü kurs tələbəsi Kamran İsayev Nəsimi qəzəllərini təhlil edib.





## *Filologiya TGT-nin keçirdiyi iclaslar*

BDU Filologiya fakültəsinin Tələbə Gənclər Təşkilatı **13 sentyabr 2019-cu il** tarixində idarə heyəti və yeni tədris ilinin başlanması münasibətilə ilk iclasını keçirdi. Fakültə üzrə Tələbə Gənclər Təşkilatının sədri Tural Cəfərov qarşıda görüləcək işlər barəsindəki planı idarə heyətinin üzvlərinin diqqətinə çatdırdı. Qeyd etmək lazımdır ki, iclas zamanı bir sıra məsələlər müzakirə olunub. Burada aktiv tələbələrin yaradıcı ideyaları maraq doğurdu.





**28 oktyabr 2019-cu ildə** TGT Filologiyanın növbəti iclası keçirildi.İclasda təşkilatın gələcək fəaliyyəti ilə bağlı məsələlər müzakirə olunub.TGT üzrə fakültə sədri Tural Cəfərov,sədr müavinləri Alsu Əliyeva,Həsrət Emçiyev və İctimaiyyətlə Əlaqələr üzrə katib Sezər Məmmədli üzvlərin suallarını cavablandırıb müəyyən maarifləndirici məlumatlar veriblər.Yekunda isə təşkilat üzvlərinin təklifləri dinlənilib.





**14.12.2019 il** tarixində Bakı Dövlət Universiteti  Tələbə Gənclər Təşkilatı Filologiya fakültəsində 1ci və 2ci kurs qrup koordinatorları ilə iclas keçirdi.

İclas zamanı yeni təyin olunmuş qrup koordinatorları ilə tanış olunmuş, daha sonra isə ideya, təklif və problemləri geniş şəkildə müzakirə edilmişdir.





**25.12.2019 il** tarixində Bakı Dövlət Universiteti Tələbə Gənclər Təşkilatı Filologiya fakültəsi imtahan öncəsi 1-ci kurs tələbələri ilə görüş keçirdi. Görüşü öz çıxışı ilə Filologiya fakültəsi Tələbə Gənclər Təşkilatının sədri Tural Cəfərov açıb. O tələbələrə imtahanlar haqqında bir sıra məlumatlar verib və onlara uğurlar arzulayıb. Görüşü öz çıxışı ilə Filologiya fakültəsi Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "Art club" sədri Ləman Hüseynzadə davam etdirib. O imtahanların gedişatı haqqında tələbələrə məlumat verib. Sonra Filologiya fakültəsi Tələbə Gənclər təşkilatının sədr müavini Həsrət Emçiyev tələbələrlə imtahan haqqında öz fikirlərini bölüşüdü. Görüş tələbələrin marağına səbəb olub.





## *Filologiya TGT-nin üzvlərinin iştirak etdiyi tədbirlər*

**06 aprel 2019-cu il** tarixində Bakı Dövlət Universitetinin Filologiya fakültəsi Tələbə Gənclər Təşkilatının sədri və idarə heyətinin üzvləri Bakı Muğam Mərkəzində məşhur Amerika yazıçısı, Delaver Universitetinin professoru- Aleksandr Səlimovun yaradıcılıq gecəsinə həsr olunmuş ədəbi tədbirdə iştirak etdilər. Tədbir tələbələrin marağına səbəb oldu.





**1 iyun 2019-cu il** tarixində Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının sədri, idarə heyətinin üzvləri və fakültə tələbələri bu il ölkəmizdə “Nəsimi ili” elan olunması ilə əlaqədar Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında “Nəsimidən Füzuliyə - Azərbaycan klassik poeziyasının dahiləri” mövzusunda ədəbi-bədii gecədə iştirak ediblər. Tədbir tələbələrin marağına səbəb oldu.



**9 iyul 2019-cu il** tarixində Beynəlxalq Mətbuat Mərkəzində “Sosial və İqtisadi İslahatlara Dəstək” İctimai Birliyinin və Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin birgə təşəbbüsü ilə BDU-nun Filologiya fakültəsinin 100 illik yubileyinə həsr olunmuş “Azərbaycan filologiyasının inkişafında Bakı Dövlət Universitetinin rolu” mövzusunda beynəlxalq elmi konfrans keçirildi. Konfrans Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2019-cu ilin 1-ci qrant müsabiqəsinə layihə şəklində təqdim edilib və qalib gəlib. Tədbirdə Bakı Dövlət Universiteti, Gəncə Dövlət Universiteti kimi bir sıra universitetlərdən sayılıb-seçilən professor, alim, ziyalılar çıxış etdilər. Bununla yanaşı, Türkiyənin Fırat Universiteti Müasir türk dilləri kafedrasının dosenti Süleyman Kaan Yalçının və Şimali Kipr Türk Cumhuriyyəti Girne Amerikan Universitetinin Türk dili və ədəbiyyatı müəllimliyi kafedrasının müdiri dosent Elza Alışova Dəmirdağın çıxışlarını əks etdirən videomaterial dinlənilib.Tədbirdə həmcinin Filologiya fakültəsi Tələbə Gənclər Təşkilatının sədri Tural Cəfərov və idarə heyətin üzvləri də iştirak etmişdilər.



**14 sentyabr 2019-cu il** tarixində Buzovna çimərliyi ərazisində təmizlik aksiyası baş tutmuşdur. Bu cür təmizlik aksiyaları könüllü əsaslarla tullantıların toplanması üzrə dövlət qurumları, özəl təşkilatlar, bələdiyyələr, qeyri-hökumət qurumları və vətəndaşları birləşdirən sevimli bir ənənəyə çevrilmişdir. Aksiyada könüllü şəkildə fəaliyyət göstərən şəxslər sırasında Filologiya fakültəsi üzrə Tələbə Gənclər Təşkilatının sədri Tural Cəfərov və eyni zamanda təşkilatın idarə heyəti fəaliyyət göstərmişdir. Ümumdünya Sahilyanı Təmizlik Günü ərəfəsində keçirilən tədbirin əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dəniz ətraf mühitinin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.





**28 sentyabr 2019-cu il** tarixində Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının sədr müavini Alsu Əliyeva, idarə heyətin üzvləri və fakültə tələbələri Heydər Əliyev Fondunun təşkil etdiyi "Nəsimi-şeir, incəsənət və mənəviyyat festivalı" çərçivəsində Nəsiminin böyük tədqiqatçısı alman alimi Mixael Hesseinin "Məndə sığar iki cahan. Azərbaycanın ölməz şairi Imadəddin Nəsimi" kitabının təqdimatı mərasimində iştirak edib. Tədbir tələbələrin marağına səbəb oldu.



**11 noyabr 2019-cu il** tarixində Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının heyəti Heydər Əliyev Fondu tərəfindən Bakının Xətai Rayonunda salınan yeni "Gənclik" parkında "Təbiət naminə birləş! Həyat naminə birləş!" layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak ediblər.





## *Filologiya Fakültəsinin Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən klublar*

Filologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının nəzdində tələbələrin asudə vaxtlarını ən səmərəli şəkildə qiymətləndirməsi üçün klublar fəaliyyətə başlamışdır.Bunlar **"Self Progress Club" ("Şəxsi İnkişaf"klubu (CPD-Club for Personal Development)), "İncəsənət" klubu (Art club), "Musiqi" klubu (Music club),"Club of Young Actors"**

Klubların əsas məqsədi gəncləri bir şəxs kimi formalaşdırmaq, onların incəsənətə olan maraqlarını oyatmaq, öyrənərkən əyləndirməkdir.

***Self Progress club (Özünü İnkişaf klubu)*** Tələbə Gənclər Təşkilatının Filologiya fakültəsi nəzdində fəaliyyət göstərir. Klub özünü inkişaf ettirmək, bacarıqlarını üzə çıxarmaq istəyən tələblər üçün nəzərdə tutulmuşdur.Klubumuzun əsas məqsədi tələbələri gələcək qayğısı içərisində boğulmaqdan xilas etmək və onların gələcəyə tam şəkildə yetişdirməkdir.Klubun əvvəlki adı "Şəxsi İnkişaf"klubu idi.Klubun sədri Filologiya fakültəsinin 3-cü kurs tələbəsi Əliyeva Nisədir.

**4 noyabr 2019-cu il** tarixində klubun təqdimat mərasimi baş tutdu.Təqdimat mərasimi ilk olaraq himnimizin canlı ifası ilə start götürüb.Daha sonra klubun keçmiş sədri Hacızadə Adilə iştirakçılara birliyin məqsədi və iş prinsipləri barədə məlumat verib.Tədbirin növbəti mərhələsində Hacızadə Adilə və sədr müavini Məmmədli Sezər iştirakçılara "Motivasiya"haqqında müəyyən nəzəri məlumatlar və sözügedən mövzuya uyğun həyati nümunələr çatdırıblar.Yekunda iştirakçılarla bu barədə diskussiya aparılıb,təkliflər dinlənilib.





**15.11.2019** tarixində Filologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən **"Self of Progress Club"-un(“Şəxsi inkşaf" klub) “Gülümsəyin”** adlı seminarı baş tutub.Təlimi ilk olaraq klubun keçmiş təsisçisi eyni zamanda sədri Hacızadə Adilə açıq elan edib.Daha sonra Filologiya fakültəsinin ikinci kurs tələbəsi  Fərəcullayeva Nəzrin təlimi icra edib.Təlimin gedişində dərnəyimizin istedadlı üzvü Rüfət Qarayev ifası ilə izləyiciləri valeh edib.Qeyd edək ki,auditoriyada tələbələrlə yanaşı Sosial məsələlər üzrə dekan müavini Anar Fərəcov da olub.O klubun fəaliyyətini yüksək qiymətləndirərək iştirakçılara uğurlar arzu edib.Seminar böyük marağa səbəb olub,izləyicilər auditoriyadan məmnunluq hissi ilə ayrılıblar.





## “İncəsənət”klubu (“Art Club”)

Filologiya fakültəsi Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən digər klub isə **"İncəsənət"klubudur ("Art Club")** .Klubun sədri 3-cü kurs tələbəsi Hüseynzadə Ləmandır.Klub rəsmə və incəsənətə marağı olan tələbələrin öz asudə vaxtlarını dəyərləndirmək üçün nəzərdə tutulub.Rəsm təlimlərində sıfırdan dərslər keçiriləcəkdir.

**12 oktyabr 2019-cu il** tarixində **"Art Club"-un ilk təqdimatı** baş tutub.Öncəliklə təlimi "Art club"-un sədri Hüseynzadə Ləman açıq elan edib. Təlimin ilk günündə rəsmə nəzəri baxış və fiqurların çəkimi göstərilib. Qabiliyyət dərəcəsindən aslı olmayaraq, təlimin sonunu hər bir tələbə uğurla başa çatdırıb. Təqdimatın giriş hissəsindən sonra slayd şou nümayiş etdirilib. Hər bir tələbənin rəsm işi ilə tək-tək maraqlanılıb.





**19 oktyabr 2019-cu il** tarixində **"Art Club"-un 2-ci təlimi** baş tutub. Təlim Hüseynzadə Ləman tərəfindən açıq elan edilib. Təlimdə natürmort, əşyaların düzgün yerləşdirilməsi, prespektiv, karandaşla düzgün işləmə kimi mövzular işlənilib. İlk təlimin tələbələr üzərində təsiri aydın şəkildə gözə çarpıb. Tələbələr fasilə zamanı gitar ifası ilə müşahidə olunub. Təlimdə üzvlərlə yanaşı Filologiya fakültəsinin TGT üzrə idarə heyətinin üzvləri də iştirak edib.

**26 oktyabr 2019-cu il** tarixində **"Art Club"-ın 3-cü təlimi** baş tutub. Təlimi Hüseynzadə Ləman açıq elan edib. 3-cü təlimdə tələbələrin əksəriyyətinin maraq dairəsinin mərkəzində duran 'Portet' çəkimi öyrədilib. 'Portret' çəkiminin 4 üsulundan 1-cisi tələbələrə izah olunub. Digər 3 üsula 3 təlim günü sərf olunacaq. Filologiya, Jurnalistika, Ekologiya, Fizika, Tətbiqi-riyaziyyat və s. fakültələrin tələbələrinin iştirakı ilə təlim keçirilib. Təlimdə Filologiya fakültəsinin idarə heyəti də iştirak edib.



**02.11.2019** tarixində**"Art Club"-un 4-cü təlimi** baş tutub. Təlimi Hüseynzadə Ləman açıq elan edib. Yeni təlimçi profesianal rəssam Qurbanov Fərid tələbələrə üzün düzgün rəngləndirilməsi, portret üçün lazım olan vəsaitlər haqda məlumat verib. Portret çəkiminin 4-cü dərsində üzün hissə-hissə rəngləndirilməsi, ölçü götürmək kimi mövzular işlənilib. Hər bir tələbənin rəsm işi ilə ayrı-ayrı maraqlanılıb.



**9 noyabr 2019-**cu il tarixində **"Art Club"-un 5-ci təlimi** baş tutub.

Təlimi Hüseynzadə Ləman açıq elan edib. Təlimdə gələcək günlərdə təşkil olunacaq BDU-nun 100 illiyi ilə bağlı sərgi haqqında mülahizələr aparılıb. Portret çəkiminin sonuncu dərsi keçirilib. Təlimdə Filologiya TGT-nın idarə heyəti də iştirak edib.



**16.11.2019** tarixində **"Art Club"-un növbəti təlimi** baş tutub. Təlimi Hüseynzadə Ləman açıq elan edib. Təlimçi Qurbanov Fərid tərəfindən tələbələrə üzün xırda detallarını, həmçinin canlı görünüşlü saç çəkimi öyrədilib. Bugünkü təlimdə keçiriləcək sərgi üçün şəkillərin çəkilməsinə başlanılıb.



**23.11.2019** tarixində **"Art Club"**-un növbəti təlimi baş tutub. Bugünki təlimdə "Bakı Dövlət Universitetin 100 illiyi" mövzusunda gələn həftə keçirləcək sərgiyə hazırlıq tamamilə başa çatdı. **"Art Club"**-un aktiv tələbələri universitetin görkəmli şəxslərinin portretini, loqosunu və binasının müxtəlif formallarda şəklini çəkiblər. Təlimçi Hüseynzadə Ləman həm həftəiçi həm də təlim günü şəkillər üzərində düzəlişlər edib. Həm də təlimçi Qurbanov Fərid portretlərin tam canlı görünməsi üçün tələbələrə köməklik göstərib. Həmçinin yeni qoşulmuş tələbələrə portret dərslərinin ilk mərhələsi keçirilib




.

06.12.2019 tarixində Bakı Dövlət Universitetində "İmadədin Nəsiminin 650 illiyi" ilə bağlı keçirilmiş respublika elmi konfransında "Art Club"-ın rəsm sərgisi nümayiş etdirilib. Sərgiyə qoyulmuş rəsm nümunələrində İmadədin Nəsimi və hürufizim haqqında kompozisiyalar özünü göstərib. "Art Club"-ın təlimçisi Hüseynzadə Ləman, üzvlərdən Abbasova Xalidə, Məmmədli Aysel, Məmmədova Kəklik, Əhmədova Günay sərgiyə rəsm işlərini vermişlər. Universitetin rektoru cənab Elçin Babayev rəsm işlərini yüksək qiymətləndirib və gənc rəssamları həvəsləndirib.



**07.12.2019** tarixində **"Art Club"**-ın qış sessiyasının sonuncu təlimi baş tutub.  Təlimdə il ərzində keçirilmiş dərslər və onların nəticələri haqqında müzakirələr aparılıb. Sonda universetin ilk **"Art Club"-**nun uğurlarını qeyd etmək məqsədi ilə tort kəsilib. Təlimçi Hüseynzadə Ləman tələbələrə gələn sessisyayadək uğurlar arzu edib və müəyyən tapşırıqlar verib.



Filologiya fakültəsi Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən digər klubumuz isə"The Voice of Unity" **("Music Club")-"Musiqi"klubudur.**Klubun sədri filologiya fakültəsi 4-cü kurs tələbəsi Nəzərli Aysudur. Klub musiqiyə marağı olan gəncləri bir araya toplamaq,musiqi bacarığı olan tələbələrin istedatlarını üzə çıxarmaq,tələbələrə musiqi sevgisini aşılamaq, onların boş və asudə vaxtlarını səmərəli zamana çevirərək müxtəlif musiqi janrlarını tanıtmaqla əylənmələrini təmin etməkdir.

**15 oktyabr 2019-cu il** tarixində "Music club"-un ilk təqdimatı baş tutub.Tədbirdə çıxış üçün ilk söz Filologiya fakültəsinin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcova verilib. O, çıxışında tələbələrin asudə vaxtının bu kimi klublarda keçirməsinin mühüm əhəmiyyət daşıdığını bildirdi. Daha sonra "Music club"-un sədri Aysu Nəzərli klubun prinsipləri və məqsədləri haqda məlumatlar verib. Tədbirdə tələbələrin ifa etdiyi musiqi nömrələri izləyicilərdə xoş ovqat yaradıb.







**09.12.2019** tarixində "Music Club"-un "Vətənpərvər Tələbələr" başlığı altında tədbiri keçirilmişdir. Tədbir Azərbaycan Himni ilə başlmışdır. Daha sonra müxtəlif tip musiqilər ifa edən klubun aktiv üzvləri vətənpərvərlik hissinin aşılanmasında mühüm rol oynamışdırlar.Qeyd edirik ki, tədbirdə milli musiqi nümunələrimiz olan "Yaşa mənim xalqım", "Şəhid arzuları", "İgid əsgər", "Cənab Leytinant", "Torpağın səsi" "Qarabağ", "Azərbaycan" mahnıları ifa edilmiş, tədbir xor müşayətində səsləndirilən "Azadlıq marşı" ilə sonlandırılmışdır.





**27.12.2019** tarixində Bakı Dövlət Universiteti Sosial elmlər və psixologiya fakültəsi, Tələbə Gənclər Təşkilatı, Gənc İstedadlar Klubu və Filologiya fakültəsi Tələbə Gənclər Təşkilatının nəzdində "Music Club"ın birgə təşkilatçılığı ilə Yeni il şənliyi keçirilmişdir. Tədbirdə SEP fakültəsinin dekanı Hikmət Əlizadə, dekan müavinləri Daxil Vəliyev,İranə Məmmədli və BDU TGT-nin sədri Nicat İsmayılov da iştirak etmişdir. Qeyd edirik ki, müxtəlif tip musiqilərin  ifa edildiyi və tamaşaların göstərildiyi tədbir tələbələrin böyük marağına səbəb olmuşdur.



